

# 103 il əvvəlki Zəfər tarixi

## Qafqaz İslam Ordusunun Qarabağ hərəkatının tarixi böyükdür

**Kənan Novruzov**

**Tarix özünün qüdrətini, ədalətini dəfələrlə göstərib. Keçən əsrin birinci yarısında, daha dəqiq desək, 1918-ci ildə Azərbaycanın qardaş dəstəyinə ehtiyacı olduğu bir vaxtda Türkiyə yanımızda oldu. Nuru Paşanın rəhbərliyi altında Qafqaz İslam Ordusu gücümüzə güc qatdı, işğalçılara qarşı birlikdə mübarizə apardıq.**

Azərbaycan və Türkiyə hərbi qüvvələrindən təşkil olunan Qafqaz İslam Ordusu əvvəlcə Bakını işğaldan azad etdi. Ardınca isə Qarabağ, Şuşa düşməndən təmizləndi. Bir əsr əvvəl göstərilən qardaş dəstəyini bir il əvvəl də Türkiyə davam etdirdi. Yenə də Türkiyənin mənəvi dəstəyini hiss etdik, diplomatik müstəvidə birgə addımladıq və möhtəşəm qələbə qazandıq. Beləliklə, türkün mübarizəsinin ədalət savaşı olduğunu, qardaşlığımızın qələbə ilə nəticələndiyini dünyaya göstərdik.

**Tarixçi-alim, Firdovsiyyə Əhmədova tarixi analogiya barədə fikirlərini "Şərq"lə bölüşərkən qeyd edib ki, Bakı azad edilənədək Azərbaycan digər ərazilərdə hakimiyyətini bərpa edə bilmirdi.** Bütün güc paytaxt üçün səfərbər olmuşdu. Həmin vaxt Qafqaz İslam Ordusunun komandanı Nuru Paşa ermənilərə sülhməramlı təkliflər etsə, düşmən razılaşmadı. Azərbaycanlıların etnik təmizlənməsi türk komandanlığını narahat edirdi. Bakı azad edildikdən sonra görülən ilk iş Qarabağ hərəkatının təşkili oldu. Savaşdan əvvəl də Nuru Paşa sülh arzusu ilə çıxış etdi. Amma ermənilər yenə təklifə yaxın durmadı".

**F.Əhmədova qələbənin həm də siyasi** səciyyə daşıdığını deyib: "103 il əvvəl Şuşanın azad edilməsi strateji əhəmiyyət daşıyırdı. Zəfərdən sonra Azərbaycan-Osmanlı ordusunun birgə hərbi keçidi baş tutdu. Və həmin qələbə keçən il bir daha təkrarlandı. Fətəli Xan Xoyskinin sözləri ilə desək, bu, öz xoşbəxtliyini başqalarının bədbəxtliyi üzərində quranlara dərs olmalıdır. Ermənistan baş verənlərdən dərs çıxarmalı, normal siyasət aparmalıdır, işğalçılıqdan əl çəkməlidir. Əks halda yenə eyni aqibəti yaşayacağını unutmamalıdır".

**"Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı isə bildirib ki, Bakının azad edilməsindən sonra Qafqaz İslam Ordusunun qarşısında duran əsas vəzifə Qarabağı düşmənlərdən təmizləmək idi:** "Ermənidaşnaklar Qarabağ ərazilərində, Şuşada soyğunçuluqla, terrorla məşğul idilər. Əskəran keçidi ələ keçirilmiş, Şuşa ilə Qarabağın əlaqəsi kəsilmişdi. Şuşa mühasirədə idi. Beləliklə, oktyabrda hərbi əməliyyatların planı hazırlandı və hərbi əməliyyatlar çox az - cəmi iki həftə çəkdi. Andranik İrana qaçdı. Hətta o, özü erməni mətbuatına etiraf etmişdi ki, Azərbaycan-türk hərbi birləşmələrinə müqavimət göstərə bilmədi. Qarabağın azad edilməsinin təməli məhz belə qoyuldu. Türk qoşun hissələri oktyabrın sonunda imzalanan Mudros sazişindən sonra Cənubi Qafqazdan çıxsalar da, Azərbaycan milli qüvvələri Şuşaya yerləşdi. Yəni zəfərimizin tarixi kökləri 1918-ci ilə gedib çatır".